# 1920-ci ilin yazında Qarabağ və digər bölgələrimizə erməni hücumları:

# Azərbaycan dövlətçiliyinin sınaq mərhələsi

*Artıq dördüncü ayını başa vurduğumuz 2025-ci il bir çox hadisələrin ildönümünün qeyd edilməsi ilə əlamətdar olacaqdır. Bu hadisələr arasında heç şübhəsiz, 44 günlük İkinci Qarabağ müharibəsində qazandığımız tarixi zəfərin 5 illiyi mühüm yer tutur. Eyni zamanda bu il biz daha üç tarixi hadisənin - Azərbaycan Xalq Cümhuriyyətinin Antanta Ali Şurası tərəfindən tanınmasının (yanvar 1920-ci il), Cümhuriyyətimizin Sovet Rusiyası tərəfindən işğalının (aprel 1920-ci il) və nəhayət 1920-ci il mart hadisələrinin 105 illiyini də qeyd edirik.*

1920-ci ilin yazında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın müxtəlif bölgələrinə təcavüzü nəticəsində baş vermiş hadisələr milli dövlətçilik tariximizin ən çətin dövrlərindən birini təşkil edir. Milli tarixşünaslığımızda 1918-ci ilin yazında ermənilər tərəfindən Bakıda və müxtəlif bölgələrimizdə törədilmiş soyqırımları haqqında kifayət qədər bəhs edilsə də, bunu həmin hadisələrdən iki il sonra - 1920-ci ildə erməni silahlı dəstələrinin həyata keçirdikləri növbəti qırğınlar və vəhşiliklər haqqında söyləmək çətindir. Əgər 1918-ci ilin martında Bakıda və eyni adlı quberniyada dinc Azərbaycan əhalisinə qarşı soyqırımları Bakı Sovetinin əsasən ermənilərdən təşkil olunmuş qoşunları, bölgələrdə isə mütəşəkkil erməni hərbi dəstələri tərəfindən həyata keçirilmişdisə, 1920-ci ilin yazında azərbaycanlılara qarşı kütləvi vəhşiliklər artıq Ermənistan Respublikasının nizami ordusunun Azərbaycan torpaqlarına birbaşa hərbi təcavüzü nəticəsində baş vermişdi. Novruz bayramı günlərində Ermənistan silahlı qüvvələri Qazaxdan tutmuş Ordubada qədər geniş ərazidə əvvəlcədən hazırlanmış plan əsasında hücuma keçərək saysız-hesabsız cinayətlər törətmişlər. Ermənilərin əvvəlcədən düşünülmüş, vahid plan əsasında məhz Novruz bayramı günlərində hücuma keçmələrini son vaxtlar onların özləri tərəfindən nəşr edilmiş mənbələr də təsdiq edir. Çox təəssüf ki, həmin günlərdə erməni nizami hərbi hissələri və ayrı-ayrı quldur dəstələri tərəfindən Azərbaycan türklərinə qarşı həyata keçirilmiş kütləvi cinayətlər haqqında nəinki geniş beynəlxalq ictimaiyyət, eləcə də dünya tarixşünaslığı kifayət qədər məlumatlara malik deyil. Ermənilər bundan istifadə edərək müxtəlif ölkələrin mətbuatında 1920-ci ilin mart-aprel aylarında Azərbaycanın bölgələrində baş vermiş hadisələrin mahiyyətini saxtalaşdıraraq guya türklər tərəfindən növbəti soyqırımına məruz qaldıqlarını bəyan edir, hətta hər il qondarma "Şuşa qətliamı"nın ildönümünü qeyd edir, həmin hadisələr zamanı guya on minlərlə ermənin öldürüldüyünü iddia edirlər.

Qədim Azərbaycan torpağı olan İrəvan bölgəsində yaradılmış Ermənistan dövləti xarici havadarlarının dəstəyinə arxalanaraq Naxçıvan, Zəngəzur, Qarabağ torpaqlarını zor gücünə ələ keçirməyə çalışmış, dəfələrlə bu bölgələrə hücum edərək saysız-hesabsız qırğınlar törətmişlər.

Zəngəzur diyarı erməni millətçiliyi üçün ölüm-dirim məsələsinə çevrilmişdi. Geosiyasi baxımdan xüsusi önəm kəsb edən Zəngəzurun türk-müsəlman əhalisindən tamamilə təmizlənməsi yolu ilə ələ keçirilməsi erməni strategiyasının əsas hədəflərindən idi. Zəngəzuru ələ keçirməklə ermənilər həm Azərbaycanın bütövlüyünü sarsıtmaq, həm də bütün türk dünyasının təbii-coğrafi birliyinə zərbə vurmaq, türk xalqları arasında quru əlaqələrini həmişəlik kəsmək məqsədi güdürdülər. Hərbi və iqtisadi vəziyyətinin ağır olmasına baxmayaraq, Ararat respublikasının rəhbərliyi Zəngəzurda etnik tərkibi və hərbi şəraiti öz xeyrinə dəyişmək və bölgəni işğal etmək üçün bütün imkanlarını səfərbər etmiş və çox təəssüf ki, buna nail olmuşdu. Hələ 1919-cu ilin əvvəllərində Azərbaycan rəhbərliyinin diqqətini ermənilərin Zəngəzurla bağlı məkrli planlarına cəlb edən Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov xəbərdarlıq edirdi ki, Qarabağın və Zəngəzurun əldən verilməsi Naxçıvanın və Ordubadın, ümumiyyətlə, bütün Azərbaycanın itirilməsi deməkdir. Naxçıvana və Ordubada yiyələnməklə Ermənistan Bakı ilə Gəncə arasında bir çiv kimi pərçim olaraq Azərbaycana öz şərtlərini diktə etdirər, dövlətimizin siyasi qüdrətini və mövcudluğunu təhlükə altına qoya bilərdi. Çox təəssüf ki, sonrakı proseslər, xüsusən Sovet Rusiyası tərəfindən Zəngəzurun Ermənistana verilməsi nəticəsində yaranmış vəziyyət X. Sultanovun uzaqgörənliyini sübut etdi.

1920-ci ilin ilk günlərindən başlayaraq ermənilərin adıçəkilən bölgələrə hücumları daha intensiv hal almışdı. Ermənilər Zəngəzurda qəzanın yerli türk əhalisinə qarşı ağlasığmaz vəhşiliklər törətmişdilər. Təkcə bir gündə - 1920-ci il yanvarın 19-da erməni nizami hissələri artilleriyadan və ağır silahlardan istifadə edərək 15 kəndi yerləyeksan etmişlər. Dinc əhaliyə qarşı həyata keçirilmiş əməliyyatlar nəticəsində qəzanın bütün müsəlman kəndləri darmadağın edilmiş, əhalisi məhv edilmiş və ya qaçqın düşmüşdü. Zəngəzuru ələ keçirdikdən sonra erməni silahlı dəstələri Şuşa qəzasını da ələ keçirmək istəyirdilər.

Azərbaycan hökumətinin həyata keçirdiyi hərbi tədbirlər nəticəsində erməni qoşunlarının azərbaycanlı əhalinin mütləq əksəriyyət təşkil etdiyi Şərqi Zəngəzuru (indiki Laçın, Qubadlı, Zəngilan rayonlarının ərazilərini), Cəbrayıl qəzasını ələ keçirmələrinə imkan verilməmişdir. Bu hadisələrdən sonra mart ayının ortalarınadək bölgədə nisbi sabitlik yaranmışdı. Zəngəzur-Şuşa istiqamətində nisbi sabitliyin yaranmasının əsas səbəblərindən biri də Ermənistan silahlı qüvvələrinin İrəvan quberniyasında, Naxçıvan və Ordubadda yerli azərbaycanlılara qarşı cəza əməliyyatları aparması ilə bağlı idi. Ermənistan hərbi komandanlığı həm Naxçıvanı, həm də Qarabağı ələ keçirmək üçün Zəngəzurdan bir plasdarm kimi istifadə edirdi. Qazax general-qubernatoru A.Xoyski daxili işlər naziri M.Vəkilova 8 mart 1920-ci ildə göndərdiyi teleqramda Dilicandan dağ yolu ilə Zəngəzura 7 min silahlı yollandığını xəbər vermişdi. Çaykənd rayonuna hücuma keçmək üçün 2500-3000 silahlı erməni toplanmışdı.

Martın 6-da Zəngəzur erməni milli şurası qəzanın erməni əhalisinə müraciət edərək "əsrlik, amansız düşmənə qarşı sonuncu, ən həlledici döyüşə başlamaq", "türk qüvvələrinə cavab verərək onları geri otuzdurmaq" çağırışı etdi. Həmin gün Qarabağ ermənilərinin VIII qurultayı da qətnamə qəbul edərək Azərbaycan hökuməti ilə bağladıqları 1919-cu il avqust sazişinin qüvvədən düşdüyünü bildirdi. Əlbəttə, bütün bu addımlar İrəvandan gələn təlimatlara və göstərişlərə uyğun atılır və faktiki olaraq Azərbaycana müharibə elan edilirdi. Müasir erməni təbliğatının iddialarına rəğmən əslində bu faktlar müharibənin kim tərəfindən başlandığına şübhə yeri qoymur. Bu müddətdə Ermənistanın XİN Qarabağın millətçi təşkilatları tərəfindən müxtəlif ölkələrin hökumətlərinə, Paris konfransına və başqa ünvanlara guya Azərbaycanın Zəngəzura və Qarabağa hücuma, erməni əhalisini qırmağa hazırlaşdığı barədə saysız-hesabsız teleqramlar, məktublar göndərilir, bununla da planlaşdırdıqları genişmiqyaslı təcavüzə ideoloji-siyasi baza yaradırdılar.





Novruz bayramı günlərində ermənilər düşünülmüş plan əsasında Böyük Vedi, Naxçıvan, Ordubad, Qarabağ və Zəngəzurda genişmiqyaslı hərbi əməliyyatlara başladılar. Gərgin döyüşlərin getdiyi ərazilərdən biri də Şuşa qəzası oldu. Martın 22-dən 23-nə keçən gecə ermənilər böyük silahlı qüvvələrlə Azərbaycan Ordusunun Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən bölmələrinə hücum etdilər. Digər yerlərə də hücum edən ermənilər geri otuzdurulsalar da onlar Əsgəran postunu qoruyan 50 əsgəri əsir götürərək postu ələ keçirdilər. Martın 22-dən 23-nə keçən gecə 400 nəfərlik erməni silahlı dəstəsi Şuşa şəhərinin azərbaycanlılar yaşayan hissəsini top atəşinə tutduqdan sonra hücuma başladılar. Eyni vaxtda Xankəndidə yerləşən Azərbaycan ordusunun hospitalına hücum edərək oradakı bütün yaralı əsgərləri qətlə yetirdilər. Lakin Xosrov bəy Sultanovun qətiyyəti sayəsində ermənilər Şuşada acınacaqlı məğlubiyyətə uğradılar. Müxtəlif erməni müəllifləri həmin hadisələr zamanı 500 nəfərdən 30 min nəfərədək erməninin həlak olduğunu iddia etsələr də onların əksəriyyəti, o cümlədən erməni əsilli tanınmış Amerika tarixçisi Richard G.Hovannisian hadisələrin ermənilərin üsyanı, müsəlmanlara hücumları nəticəsində baş verdiyini etiraf edirlər (Richard G.Hovannisian. The Republic of Armenia, Vol. III: From London to Sevres, February-August 1920, p. 152). 1920-ci ilin Şuşa qələbəsi öz əhəmiyyətinə və möhtəşəmliyinə görə əslində 2020-ci il Şuşa zəfəri qədər milli tariximizin iftixar səhifəsidir.

Qarabağda erməni qiyamçı qüvvələrinə qarşı əməliyyatlar aparan Azərbaycan Ordusunun diqqətini yayındırmaq üçün Ermənistanın hərbi-siyasi rəhbərliyi Zəngəzura əlavə qüvvələr gətirərək Azərbaycan kəndlərinə hücumlar təşkil etdi. Ermənistan qoşunlarının Zəngəzurda və Qarabağda cəmləşməsinin qarşısını almaq və onlara qarşı ikinci cəbhə açmaq məqsədilə Azərbaycan hökuməti Ermənistandakı diplomatik nümayəndəsi ilə əlaqə saxlayaraq Vedibasar və Naxçıvana bütün vasitələrlə təcili kömək göstərməyi və onları Qarabağ hadisələri haqqında məlumatlandırmağı tapşırdı. Tərtər rayonunda azərbaycanlı könüllülər əks-hücuma keçərək bir sıra erməni kəndlərini (Marağalı, Çaylı, Marquşəvan, Bruc) ələ keçirdilər. Gəncə qəzasından Cavanşir qəzasının erməni mövqelərinə hücum edildi. Burada ermənilər tam məğlubiyyətə uğrayaraq qaçmağa məcbur oldular.

Martın 23-də ermənilər Cəbrayıl qəzası istiqamətində də hücuma keçərək Xıdırlı, Danyeri, Dəvəli kəndlərini yandırdılar. Cəbrayıl qəzasının işğalı təhlükəsi yarandı. Yalnız martın 27-də buraya əlavə qüvvələrin gəlməsi sayəsində vəziyyəti sabitləşdirmək mümkün oldu. Azərbaycan qoşun hissələrinin Cəbrayıl və Zəngəzur könüllüləri ilə birgə əməliyyatları nəticəsində iki gün əvvəl işğal edilmiş bir neçə kənd azad edildi. Ermənilər martın 26-da Zəngəzur qəzası ilə Şuşa qəzası arasındakı kəndləri ələ keçirərək Gorus-Şuşa yolunu tutdular. Şuşa qəzasına girməyə cəhd edən 400 nəfərlik erməni dəstəsi Gerenzurdan hücuma keçərək azərbaycanlılar yaşayan Malxələf kəndini ələ keçirməyə cəhd göstərsə də, xeyli itki verərək (20 nəfər öldürülmüş, 2 nəfər əsir götürülmüşdü) geri çəkilməyə məcbur oldu. Əks-hücuma keçən azərbaycanlı dəstələr bir neçə kəndi azad etməyə, əsir və qənimət götürməyə müvəffəq oldular. Martın 25-də Abdallar geri alındı, 30 erməni əsgəri məhv edildi. Zeyvə cəbhəsində də ermənilər geri otuzduruldular. Cəbrayıl istiqamətində düşmənin bütün hücumları dəf edilsə də düşmən Şuşa qəzasını ələ keçirməyə səy göstərirdi. Gorusda polkovnik Kazarovun komandanlığı altında nizami piyada alayı Şuşa istiqamətində hücuma keçmək üçün dayanmışdı. Dronun Zəngəzurda 7 min partizan dəstəsi var idi. Əsgəran, Bruc rayonunda Dəli Kazarın 4 minədək silahlısı vuruşurdu. Martın 29-da Azərbaycan qoşunlarının hücumu nəticəsində Şuşa qəzasında Xarxaput, Kürd-Xanabad, Məşədilər, Fərrux kəndləri azad edilsə də ermənilərin əkshücumu ilə bu uğurları davam etdirmək mümkün olmadı. Əlavə qüvvələrin gəlməsi sayəsində ermənilər martın sonu - aprelin əvvəllərində bir sıra Azərbaycan kəndlərini (Bağırbəyli, Əliyanlı, Müsəlmanlar, Muradxanlı, Fəriman, Qaramanlı, Zəngilan, Qubadlı, Dondarlı, Bartaz və s.) ələ keçirərək əhalisini qovub çıxardılar. Martın 31-də Zəngəzurdakı erməni qüvvələri ilə Qarabağdakı erməni qüvvələri birləşdilər. Nəticədə Zəngəzur qəzasının şimal hissəsi (Dığ, Abdallar və Qubadlı rayonları) ermənilərin tam nəzarətinə keçdi. Azərbaycan Ordusunun Əsgəranı azad etmək cəhdləri də bir nəticə vermədi. Ermənilər bu istiqamətdə yerləşən Malıbəyli, Xankəndi, Xocalı, Kərkicahan kəndlərini və Şuşa şəhərini mühasirəyə aldılar. Hərbi və strateji üstünlük ermənilərin tərəfinə keçdi. Şuşa və Cəbrayıl qəzalarının işğal olunması təhlükəsi yenidən reallığa çevrildi. Ağdam-Qarabulaq-Cəbrayıl yolunu tutmağa çalışan ermənilər Qarabağın dağlıq ərazisini mühasirəyə almaqla yanaşı, aran Qarabağı da işğal etmək fürsəti əldə etdilər.

Azərbaycan XİN martın 28-də xarici diplomatik missiyalara, Ermənistan və Gürcüstan XİN-ə teleqram göndərərək Qarabağ və Zəngəzurda yaranmış hərbi vəziyyət, Ermənistan hökumətinin öz ərazisindən bu bölgələrə və Azərbaycanla sərhəd ərazilərə əlavə qoşun hissələri göndərdiyi barədə ətraflı məlumat vermişdi. Ermənistan tərəfi yenə də riyakarlıq göstərərək Qarabağda nizami qoşunlarının olmadığını, oraya əlavə qüvvələr göndərmədiyini iddia etmiş, əksinə, Azərbaycan tərəfini 22 avqust 1919-cu il razılaşmasını pozaraq martın 20-dən etibarən Qarabağda erməni əhalisini tərk-silah etməyə cəhd göstərməkdə, Qarabağ və Zəngəzurda erməni kəndlərini dağıtmaqda, dinc erməni əhalisini qırmaqda ittiham etmişdi. Cənubi Qafqazdakı müttəfiq dövlətlərin ali komissarları aprelin 1-də Azərbaycan və Ermənistan hökumətlərinə müraciət edərək iki dövlət arasında münaqişəli məsələləri dinc yolla həll etməyə, bölgəyə müttəfiqlərin nümayəndələrindən ibarət komissiya göndərməyə razılıq verməyə çağırdı. Erməni tərəfi onlara cavabında vəziyyətin mürəkkəbləşməsinə görə bütün məsuliyyəti öz üzərindən ataraq Qarabağdakı hadisələrin Azərbaycanın türk agentlərinin təşkil etdiyi hücumların nəticəsi olması, Ermənistanın Qarabağda heç bir hərbi hissəsinin olmaması kimi yalanları təkrar etdi. Eyni zamanda ermənilər Qarabağa komissiya göndərilməsinə o şərtlə razılıq verdilər ki, bu komissiya elan etməlidir ki, "Qarabağ öz arzusuna uyğun olaraq öz taleyini müəyyənləşdirmişdir və qanı bahasına Ermənistana birləşmişdir". F.X.Xoyski 8 aprel 1920-ci il tarixli notasında ermənilərin məlum hadisələrlə bağlı iddialarının tamamilə yalan olduğunu, dövlətin azadlığına və hətta mövcudluğuna qarşı yönəlmiş üsyanın yatırılması üçün təxirəsalınmaz tədbirlər görülməsinin vacibliyini bildirmişdi.

Aprelin 3-də Azərbaycan Ordusu yenidən hücuma keçərək Əsgəranı, sonra isə Kətik, Aranzəmin, Naxçıvanik, Daşbaşı, Qayabaşı, Xanazax kəndlərini geri aldı, erməni qoşunlarının mühasirəyə aldığı Xankəndi və Şuşanı azad etmək üçün irəliyə hərəkət etməyə başladı. Qurd-Xanabad kəndində Dəli Kazarın öldürülməsi ermənilərin döyüş ruhuna ciddi təsir göstərdi. Aprelin ortalarında Ağstafa-Qazax-Tovuz, Çaykənd-Hacıkənd, Keşişkəndə də ermənilərin irəliləməsinin qarşısı alındı. Aprelin 9-12-də gərgin döyüşlərdən sonra Keşişkəndin ələ keçirilməsi ordunun döyüş ruhunu xeyli yüksəltdi. Azərbaycan qoşunları aprelin 14-də Abdallar rayonunda Martiz dağını tutaraq düşməni Zabux çayının o biri tərəfinə qovdu. Hərbi əməliyyatlara rəhbərlik edən general H.Səlimov qoşunları yenidən qruplaşdırdıqdan, silah-sursatla təmin etdikdən sonra aprelin 20-dən sonra Zəngəzur istiqamətində hücuma başlamağı planlaşdırırdı. O yazırdı ki, bizim gənc qoşunlarımız əla döyüşsələr də ifrat dərəcə də mütəəssirdirlər. Azərbaycan Ordusunda təcrübəli zabitlərin olmaması uğurlu əməliyyatlar aparmağa imkan verməyən əsas amillərdən biri idi.

Martın 21-də başlayan müharibə Ermənistan ordusunda çox böyük insan itkisinə və maddi tələfata gətirib çıxardı. Ermənistan rəhbərliyi Zəngəzur və Qarabağda baş verən hadisələr haqqında əsl həqiqətləri öz xalqından gizlədərək bölgədə ermənilərin "tatar başkəsənləri" tərəfindən kütləvi qırğınlara məruz qalmaları haqqında yalanlar uydururdu. Ermənistan qoşunlarının komandanlığının qərargah rəisi Ermənistan Respublikasının hərbi nazirinə məruzəsində Azərbaycanın Ermənistanın hüdudlarında hərbi əməliyyatlar aparmaqla Türkiyə ilə birləşmək istədiyini iddia edərək Azərbaycan qoşunlarına qarşı vuruşan qüvvələrin Ermənistanın nizami qoşunları deyil, "özünümüdafiə dəstələri", "xalq könüllüləri" olduğunu sübut etməyə, bununla da Ermənistanın Azərbaycan torpaqlarına hərbi müdaxiləsini ört-basdır etməyə çalışırdı.

Azərbaycan Ordusunun yeni qüvvələr, silah-sursat və digər vasitələrlə təmin edilməsində ciddi problemlər yaranmışdı. Belə şəraitdə Şuşa istiqamətindən Zəngəzura hücum ağır nəticələrə gətirib çıxara bilərdi. Qoşunların öz qüvvəsini bərpa etməsi üçün zamana ehtiyac var idi. Digər tərəfdən, Qırmızı Ordunun şimaldan Azərbaycan sərhədlərinə yaxınlaşması Azərbaycanın hərbi rəhbərliyinə Qarabağda vuruşan qoşunlara canlı qüvvə göndərməyə imkan vermirdi. Əksinə, rəhbərlik şimal sərhədlərini qorumaq üçün Qarabağdan qüvvə gətirilməsi imkanlarını nəzərdən keçirirdi. Bütün bunlar Qarabağ və Zəngəzurda həlledici tədbirlər görməyi mümkünsüz edirdi.

1920-ci ilin martında ermənilərin Naxçıvan bölgəsinə hücumları intensiv xarakter almışdı. Martın 21-də səhər saat 10-da Njdenin başçılığı ilə 10.000 nəfərlik erməni ordusu Zəngəzur tərəfdən üç istiqamətdə hücuma keçərək Ordubadın 16 kəndini dağıtmış, bu kəndlərin əhalisini qırmışdı. Sağ qalmış əhalinin bir hissəsi Ordubad şəhərinə sığınmış, bir hissəsi isə İrana keçməyə məcbur olmuşdu. Bu zaman bir çox insan Arazı keçərkən həyatını itirmişdi. Türk kəndlərinə qarşı vəhşilikələrdə Njdenin dəstəsi ilə yanaşı, qonşu erməni kəndlərinin silahlı dəstələri də fəal iştirak etmişlər. Ordubadlılar işğalçılara qarşı layiqli müqavimət göstərsələr də yaxşı silahlanmış nizami qoşun hissələrinin qarşısını almaq mümkün olmamışdı. Ordubad və Naxçıvanın işğal edilməsi ermənilərin əsas strateji planlarından biri idi. Bu bölgələrə ermənilər həm də Ermənistanı Zəngəzur və Qarabağla birləşdirən strateji ərazi kimi baxırdılar. Bu bölgələri ələ keçirməklə Azərbaycanla Türkiyə arasındakı quru əlaqəni kəsmək, bütün Türk dünyasını parçalamaq məqsədi güdürdülər. Yalnız türk zabiti Ədib bəyin başçılığı ilə Naxçıvandan gəlmiş hərbi yardım sayəsində ermənilər məqsədlərinə nail ola bilmədilər. Aza kəndi yaxınlığında Ədib bəyin Naxçıvandan gətirdiyi 800 nəfərlik dəstə ilə erməni qoşunu arasında baş verən döyüşdə sonuncular ağır məğlubiyyətə uğrayaraq Zəngəzura qaçmağa məcbur oldular. Sonrakı günlərdə ermənilər Ordubada bir neçə dəfə hücum etməyə cəhd etsələr də onların bu cəhdləri uğursuz oldu. Bununla da Ordubadın ermənilərin əlinə keçməsinin qarşısı alındı. Digər cəbhələrdə də ermənilərə ağır zərbələr endirilirdi. Vedibasar rayonunda Abbasqulu bəy Şadlinskinin başçılığı ilə yerli azərbaycanlılar erməni quldur dəstələrinə inadlı müqavimət göstərdilər. Qərb istiqamətində hücumlarını sürətləndirən Naxçıvan qüvvələri İrəvanın 8 kilometrliyinə qədər gəlib çatmışdılar. Azərbaycan hökuməti naxçıvanlılara birbaşa hərbi yardım göstərə bilməsə də onlara siyasi-diplomatik dəstəyini davam etdirirdi.

Ermənistanın nizami ordu hissələrinin hücumlarına məruz qalan bölgələr arasında Gəncə quberniyasının Qazax və Gəncə qəzalarının sərhəd məntəqələri də var idi. 1920-ci il aprelin 5-də erməni silahlı dəstələri Qazax qəzasının Yaradullu kəndinə hücum edərək bütün əhalisini qırmışdılar. Hücumlarını davam etdirən ermənilər Tatlı kəndinə hücum etsələr də sakinlər kəndi qoruyub saxlamağa müvəffəq olmuşdular. Qəzanın Axuş, Tovuz, Qala (Qalaboyun) və digər kəndləri də ermənilər tərəfindən dağıdılmışdı. Bu vəhşiliklər general Baqdasarovun komandanlığı altında həyata keçirilmişdi. Aprelin 9-da atəşin dayandırılması haqqında razılıq əldə olunsa da erməni tərəfi bu dəfə də sazişi pozaraq hücuma keçmiş və Aşağı Əskipara, Yuxarı Əskipara, Xeyrimli, Əyrizli, Qusçu və başqa kəndləri yandırmışdılar. Ermənilərin bu hərəkətləri ilə bağlı xarici işlər naziri F.X.Xoyski üç dəfə (6, 8, 12 aprel tarixlərində) Ermənistan tərəfinə öz etirazını bildirsə də erməni qoşun hissələrinin Qazax qəzasında Ermənistanla sərhəd kəndlərinə hücumları davam edirdi. Gəncə quberniyasının narahat bölgələrindən biri də Gədəbəy rayonu idi. Rayonun bir çox erməni kəndlərində, o cümlədən Çardaxlı kəndində mütəşəkkil hərbi dəstələr fəaliyyət göstərirdi. İrəvandan hərbi yardım alan bu dəstələr qonşu müsəlman kəndlərinə mütəmadi hücumlar edirdilər.

Bu dövrdə Azərbaycan hökumətinin həyata keçirdiyi hərbi və diplomatik tədbirlər ermənilərin Qərbi Zəngəzur (Sisian, Qafan, Gorus və Mehri rayonlarını) işğal etmək cəhdlərinin qarşısını ala bilmədi. Bu isə sonda Qarabağda vəziyyətin yenidən gərginləşməsi, bolşeviklər tərəfindən Qərbi Zəngəzurun Ermənistana verilməsi, bölgənin azərbaycanlı əhalisinin kütləvi qırğını və deportasiyası, Naxçıvanın Azərbaycanın əsas ərazisindən ayrı düşməsi ilə nəticələndi. Əslində 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən torpaqlarımızın işğal olunmasına gətirib çıxarmış amillər arasında hələ 1920-ci ildə yaranmış geosiyasi şərait də öz təsirini göstərmişdi. Yalnız 2020-ci ildə qazanılmış tarixi Zəfərimiz torpaqlarımızın işğalına son qoymaqla yanaşı, 105 il mövcud olmuş tarixi ədalətsizliyi də aradan qaldırılacağına, Zəngəzurun şərqi ilə yanaşı, qərbinə də bu torpaqların əsl sahiblərinin - azərbaycanlıların qayıdacağına möhkəm zəmin yaratmışdır.

**Kamran İSMAYILOV,**
**AMEA Tarix və Etnologiya İnstitutunun Azərbaycan Cümhuriyyəti tarixi şöbəsinin müdiri.**

Respublika .- 2025.- 13 may (№97).- S.15.